HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*30 iyul 2015-ci il*
*№004 (04)*

*yeni_yol@mail.ru* | *İCTİMAİ QƏZET* | *“გზა” საზოგადოებრივი გაზეთი* | *qəzet 17 iyun 2015-ci ildən nəşr olunur*

## TÜRKİYƏDƏ BAKI-TBİLİSİ-QARS MAGESTRALINDA SINAQ QATARI YOLA SALINDI

Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolu magestralının Türkiyə hissəsində sınaq qatarı yola salınıb.

Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Pekində keçirilən Çin-Türkiyə biznes formundakı çıxışında məlumat verib.

Türkiyə prezidenti həmçinin BTQ-nın yük daşınma sahəsindəki əhəmiyyətini də qeyd edib.

Əvvəl dəmiryolu magestralının tikinti layihəsinin 2015-ci ildə başa çatdırılmasının planlaşdırıldığı bildirilirdi.

Bakı-Tbilisi-Qars dəmiryolu Gürcüstan-Azərbaycan-Türkiyə dövlətlərarası razılaşma əsasında inşa olunur. Layihənin maliyyələşdirilməsi Dövlət başçısının “Bakı-Tbilisi-Qars layihəsi üzrə tədbirlərin həyata keçirilməsi haqqında” 21 fevral 2007-ci il fərmanına uyğun olaraq Azərbaycan Dövlət Neft Fondu tərəfindən həyata keçirilir.



Layihə çərçivəsində dəmiryolu magestralının 105 kilometrlik yeni xətti inşa olunur. Bundan əlavə Gürcüstanda Axalkalaki-Marabda-Tbilisi dəmiryolu sahəsi yenidən qurulur ki, bu da magestralın buraxıcılıq qabiliyyətini ildə 15 milyon ton yükə qədər artırır. Axalkalakidə qatarların təkərlərinin dəyişdirilməsi üçün məntəqə də tikilir.

Dəhlizin yüksək buraxıcılıq qabiliyyəti ildə 17 milyon ton yük olacaq. Başlanğıc mərhələdə bu göstərici bir milyon sərnişin və 6,5 milyon ton yükdən ibarət olacaq.

## SOCAR GÜRCÜSTANIN QAZ TƏCHİZATINDA PROBLEM YARANMAYACAĞINI BİLDİRİR



SOCAR Georgia Gas avqust ayında ölkənin qaz təchizatının dayandırılması haqqında KİV-in yaydığı məlumatı təkzib edir.

Bununla əlaqədar Azərbaycan Dövlət şirkətinin mətbuat xidməti xüsusi məlumat yayıb.

SOCAR Georgia Gas belə bəyan edib ki, Gürcüstanı Azərbaycanla birləşdirən qaz kəmərində plana uyğun təmir işləri həyata keçirilir, bu da Gürcüstan əhalisinin qazla təchizatına təsir etməyəcək.

“SOCAR Georgia Gas şirkəti bir daha bildirir ki, Bakı-Tbilisi-Ceyhan və Şahdəniz qaz kəmərlərindəki planlaşdırılmış bərpa işləri Gürcüstanın qaz təchizatına problem yaratmayacaq”.

Məlumat verilir ki, təmir işləri hər il avqust ayında həyata keçirilir və təmir işlərinin görüldüyü müddətdə heç bir halda qaz kəsilmir.

Xatırladaq ki, Gürcüstana mavi yanacaq üç mənbədən – BP korporasiyasına məxsus Şahdəniz qaz kəməri, Azərbaycan şirkəti SOCAR-a məxsus Qazax qaz kəməri və Rusiya və Ermənistanı birləşdirən qaz xətti – daxil olur. Xətlərdə bərpa işləri növbə ilə həyata keçiriləcək, sentyabrda başa çatdırılacaq.

## TÜRKİYƏ GÜRCÜSTANIN ƏSAS TİCARƏT TƏRƏFDAŞIDIR

2015-ci ilin yanvar-iyun aylarında 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə Gürcüstandan Türkiyəyə ixracın həcmi 2,% və ya 2,9 milyon dollar azalaraq, 109,4 milyon dollar təşkil etmişdir. Bu, Gürcüstanın ümumi ixracının 10,1%-i deməkdir. Bu barədə Gürcüstan milli statistika xidmətinin məlumatında bildirilir.

Bu dövrdə Türkiyədən Gürcüstana idxalda azalma müşahidə olunmuşdur. 2015-ci ilin yanvar-iyun aylarında 2014-cü ilin analoji dövrü ilə müqayisədə Türkiyədən idxal 22% və ya 182 milyon dollar azalaraq, 646,3 milyon dollardan çox olmuşdur. Bu, Gürcüstanın ümumi idxalının 17,6%-i deməkdir.

Bəhs olunan dövrdə müalicə vasitələrinin idxalı 13,2 milyon dollar artmaqla 41,8 milyon dollar təşkil etmişdir. Sanitar-gigiyena məhsullarının idxalında 1,4 milyon dollar azalma baş verərək, 17,7 milyon dollar olmuşdur.

Hesabat dövründə plastmas boru idxalı 20 milyon dollara yaxın olmuş, 5 milyon dollarlıq artım müşahidə olunmuşdur. Qara metal konstruksiyalar idxalında 690,1 min dollar artım baş vermiş, 14,4 milyon dollarlıq idxal olmuşdur.

2015-ci ilin yanvar-iyun aylarında Gürcüstanın əsas ticarət tərəfdaşı Türkiyə olub. Gürcüstanın Türkiyə ilə xarici ticarət dövriyyəsi 756 milyon dollar təşkil etmiş, 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 20% azalma müşahidə edilmişdir. Gürcüstanın xarici ticarət dövriyyəsinin 15,9%-i Türkiyə ilə dövriyyənin payına düşür.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ QARDABANİDƏ İES-İN AÇILIŞINI EDİB



Gürcüstanın baş naziri İrakli Qaribaşvili iyulun 22-də Qardabanidə ölkədə ilk olan kombinə dövürlü istilik elektrik stansiyasının (İES) açılışını etmişdir. İES-in açılış mərasimində Gürcüstan baş nazirinin müavini, energetika naziri Kaxa Kaladze, Türkiyənin energetika və təbii ehtiyatlar naziri Taner Yıldız və hər iki ölkənin digər rəsmi şəxsləri də iştirak edib.

Baş nazir bəyan etmişdir ki, İES Əməkdaşlıq fondu və Gürcüstan neft və qaz korporasiyasının maliyyələşdirdiyi 231 milyon dollarlıq layihədir.

Stansiyanın açılışında çıxış edən Gürcüstanın baş naziri İrakli Qaribaşvili tikintini həyata keçirən Türkiyə tərəfinə təşəkkürünü bildirmişdir. Baş nazirin sözlərinə görə, İES 237 meqavatt gücündə olmaqla ildə 1,6 milyard kilovat saat elektrik enerjisi istehsal etmək gücünə malikdir. Yeni stansiya Gürcüstanın elektrik enerjisinə olan tələbatının 15%-ini ödəmək gücündədir. “Bu stansiya ölkəmizin enerji təhlükəsizliyinə və iqtisadi müstəqilliyinə zəmanət verir. Ölkənin elektrik enerjisi sistemində hər hansı problem yarandıqda İES ölkəmizi qısa vaxt ərzində davamlı olaraq elektrik enerjisi ilə təmin edəcək”, - baş nazir fikrini bu sözlərlə davam etdirmişdir.

Qaribaşvili demişdir: “Bu stansiyanın tikintisinə keçən ilin yanvar ayında başlanılıb. Tikinti müqavilədə nəzərdə tutulduğundan üç ay əvvəl tamamlanmışdır. Bundan başqa İES müqavilədə nəzərdə tutulduğundan daha böyük gücə malikdir. Bu layihənin uğurla həyata keçirilməsinə görə Tərəfdaşlıq fonduna, Neft və qaz korporasiyasına və İES-in tikintisini aparmış Türkiyənin nəhəng “Çelik Enerji” şirkətinə təşəkkür etmək istəyirəm”.

## TBİLİSİDƏ GƏNCLƏRİN OLIMPIYA BAYRAMI DAVAM EDİR

2015-ci il Avropa Gənclər Olimpiya Yay Festivalı (EYOF) Gürcüstanın paytaxtı Tbilisidə başlayıb. Tbilisi iki ildə bir təşkil edilən Festivalın 13-üncüsünə ev sahibliyi edir.

Gələcəkdə Olimpiya Oyunlarına qatılmaq və medal almaq şansı olan gənc idmançıların iştirak etdiyi Festivalın rəsmi açılış mərasimi 23 min tamaşaçı tutan Mixail Mesxi adına stadionunda olub. İyulun 26-da paytaxt Tbilisidə Gürcüstanın baş naziri İrakli Qaribaşvili “Tbilisi 2015”-i açıq elan edib. Açılış mərasimində hökumət başçısı, Avropa gənclərinin 13-cü olimpiya oyunlarının təşkilat komitəsinin rəhbəri Aleksi Axvlediani çıxış edərək qonaqları salamlamış, idmançılara uğurlar arzulamışlar. Həmçinin açılış mərasimində Avropa oplimpiya komitəsinin prezidenti Henrix Hikki çıxış etmiş və Gürcüstan hökumətinə, eləcə də gürcü xalqına təşəkkürünü bildirmişdir. Gürcüstanın dövlət bayrağı və Avropa Olimpiya Komitəsinin bayrağı meydana gətirilib. Sonra hava şarı ilə Olimpiya məşəli meydana daxil olub. Məşəl meydanda Gürcüstanın tanınmış idmançıları, Olimpiya və dünya çempionları tərəfindən növbə ilə gəzdirildikdən sonra alovlandırılıb. İdmançılar minlərlə tamaşaçının alqışları ilə meydana daxil olublar.

Mərasim atəşfəşanlıqla başa çatıb.

Xatırladaq ki, Festivalda 50 ölkədən 3800-dən artıq14-18 yaş qrupundakı gənc idmançılar yarışırlar. Bu festivalda atletika, basketbol, velosiped sürmə, gimnastika, həndbol, cüdo, üzgüçülük, tennis və voleybol üzrə yarışlar keçirilir. 2015-ci il Avropa Gənclik Olimpiya Festivalı 1 avqust tarixində sona çatacaq.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# YAYIN İSTİSİ FONUNDA SİYASİ HƏRƏKƏTLİLİK

**İndi mən durub bu bir neçə gündə baş verənləri danışsam yekə bir roman alınar. Ən azından bir həftədir davam edən qızmar havanın yaratdığı mənfi emosiya isə, sizin uzun bir sicilləməni oxumaq həvəsinizi əlinizdən alacaq, siz də mənim yazdıqlarımın üzünə baxmadan kənara atacaqsınız. İsti demiş, bu istilərin fikri nədir bəlkə biləsiniz və ucundan-qulağından mənə də xəbər yollayasınız?**

Hə, bu yayın qorabişirənində siyasi fəallıq az qala kəlləçarxa vurur. İŞİD yenə də asıb kəsməyindədir. Suriya, İraq kimi dövlətlərin ərazisi qanlı müharibə mənzərələri ilə hər ötən gün daha da zənginləşməkdədir. İŞİD-in ələ keçirdiyi ərazilərin müəyyən müddətdən sonra kürd peşmərgələr tərəfindən tutulması dünyanın başbilənlərinin məkrli niyyətindən xəbər vermirmi? Suriya torbasında pişiy(lər)in olmadığını kim deyə bilər? Əsəd rejimi kimə qarşı duracağını belə ayrıd edə bilmir. Suriyada it yiyəsini tanımır deməklə mən çox da ifrata varmadığımı düşünürəm. Kimin ipi kimin əlindədir, kim kimi idarə edir, kim kimin sözü ilə hərəkət edir, idarə olunan kimdir, idarə edən kimdir sualları çox zaman açıq qalır. Artıq bu rejim dünyanın baş ağrısına çevrilməkdədir. Dünya gücləri Bəşər Əsəddən can qurtarmaq üçün razılığa gəlmək istəyirmişlər kimi görünürlər. Nədən ki, gəzən söhbətlərdən biri də ondan ibarətdir ki, ABŞ Ukrayna məsələsində Suriyaya görə Rusiyaya güzəşt getməyə razı olduğunu bildirib. Bunun nə dərəcədə doğru olduğunu hadisələrin gələcək gedişi göstərəcək. İranla altılıq ölkələrinin müəyyən razılıq əldə etmələri də dünyada, əsasən də Orta Şərqdə siyasi hərəkətliliyin artmasına təkan verib. Bu razılaşma xəbəri bir neçə həftədir ki, gündəmdən düşmək bilmir.

İŞİD-in əli Türkiyəyə də çatdı. Suruçda törədilən qanlı terror aktı, türk əsgərinə açılan atəş Türkiyə tərəfindən veriləcək cavabı çox gözlətmədi. Türk hava qüvvələrinin Suriyaya düzənlədiyi hücum, üstəgəl İraqın şimalında PKK-ya qarşı başladılan hərbi əməliyyatlar, daxildə terrorda şübhəli bilinənlərə qarşı görülən tədbirlər, mindən yuxarı şübhəlinin həbsi bu xəmirin hələ çox su aparacağını bizim yadımıza salır. Az öncə Türkiyənin NATO üzrə müttəfiqləri ilə məsləhətləşmələr aparması da yağışdan öncəki sakitlik təsiri bağışlayır. Seçkilərdən sonra yeni hökuməti formalaşdırmamış Türkiyənin atdığı addımlar da siyasi təhlilçilər tərəfindən birmənalı qiymətləndirilmir. AKP iqtidarının atdığı bu addımların həm də ölkəiçi problemlərin həllinə yönəldiyi haqqında fikirlər də səslənməkdədir.

Qafqazlarda da müəyyən siyasi fəallıq müşahidə olunmaqdadır. Dondurulmuş münaqişə ocaqlarında bu və ya digər təhrikçi hərəkətlərin baş verməsəbəbləri özüylə müxtəlif yozumlar da gətirir. Rusiyanın Gürcüstan torpaqlarını addım-addım özününküləşdirmək istəyi, deyəsən, ölkəmizin səbrini sınağa çəkmək məqsədi daşıyır. Qərbin tətbiq etdiyi sanksiyalar və ucuzlaşan neft gəlirlərinin azalması fonunda Rusiya dünyanın güc mərkəzlərindən biri olmasını kimlərəsə xatırlatmaq istəyir. Yunanıstan böhranından bəhrələnmək arzusu gerçəkləşmədikdən sonra, Rusiyanın qıcıqlandırıcı addımlar atması təbii görünür. Suda boğulanın saman çöpündən yapışmasını göz önünə gətirin.

Qaldı ki, Qafqazın ən böyük münaqişə ocağı Qarabağ məsələsi ətrafında da canlanma özünü göstərir. Daxili gərginliyi səngitmək üçün Ermənistanın müharibə ritorikasından istifadə etməsi, gənclərin etirazlarının qarşısını almaq üçün ümumi səfərbərlikdən danışması, Azərbaycanın hərbi-iqtisadi qüdrətinin güclənməsi, Azərbaycanı sevməyənlərin belə onun haqlı mövqeyini müdafiə etməsi, dünya güclərinin Qarabağ məsələsini yalan-gerçək Azərbaycanın xeyrinə həll etmək istəkləri Ermənistan hakim dairələrinin durumunun fənalığından xəbər verir. Batan gəmini xilas etmək üçün Ermənistanın atəşkəs rejimini bu və ya digər dərəcədə pozmaqla öz vətəndaşlarının başını qatmaq istəməsi danılmazdır.

**Yaydır də, siyasilər adamı siyasətləri ilə heç darıxmağa qoymurlar. Yenə sağ olsunlar, yoxsa bu yayın yeknəsəqliyindən bezərdik...**

## GÜRCÜSTANDA "BİZ DÖVLƏT DİLİNİ ÖYRƏNİRİK!" LAYİHƏSİNƏ YEKUN VURULUB



Gürcüstan prezident administrasiyasının təşəbbüsü və dəstəyi ilə mart-iyun ayları ərzində həyata keçirilən "Biz dövlət dilini öyrənirik!" layihəsinə yekun vurulub. APA-nın Gürcüstan bürosunun məlumatına görə, müxtəlif regionlarda həyata keçirilən layihədə etnik azlıqların nümayəndələri, o cümlədən azərbaycanlılar da iştirak edib.

Gürcüstanın prezident sarayında baş tutan tədbiri prezidentin etnik azlıqların məsələləri üzrə müşaviri Sofiya Şamanidi açaraq layihənin əhəmiyyətindən danışıb. Sonra layihə koordinatoru Yekaterina Kobaxidze, Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi məsələləri üzrə dövlət nazirinin birinci müavini Ketevan Tsixelaşvili, prezident administrasiyasının rəhbəri David Pataraia, İvane Cavaxişvili adına TDU-nun rektoru Vladimir Papava, Marneuli rayon icra hakimiyyətinin başçısı Merab Topçişvili, dinləyici Vaqif Süleymanov çıxış edərək dövlət tərəfindən həyata keçirilən gürcü dilinin öyrədilməsi təşəbbüslərini alqışlayaraq, pilot proqramların azərbaycanlıların yaşadığı bölgələrdə həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

Sonda "Biz dövlət dilini öyrənirik!" layihəsinin dinləyicilərinə sertifikatlar verilib, dinləyicilər haqqında film nümayiş etdirilib.

## GÜRCÜSTANDA SOSİAL YARDIMLARIN YENİ SİSTEMİ FƏALİYYƏTƏ BAŞLAYIR

Gürcüstanda avqustun birindən etibarən sosial yardımların yeni sistemi fəaliyyətə başlayır. Bu barədə Sosial xidmət agentliyinin direktoru Zaza Sopramadze məlumat vermişdir.

Sopramadze qeyd etmişdir : "Qanunvericilikdə edilmiş dəyişikliklər bizə imkan verir ki, yaşayış minimumu həcminin hesablanmasına yenidən baxaq və ayrı-ayrı kateqoriyadan olan təqaüdçülərə dövlət sosial yardımını bərpa edək".

Onun sözlərinə görə, bir neçə ay ərzində sosial yardım ala bilməmiş üç minə yaxın təqaüdçünün sosial yardımı bərpa olunacaq. Bu da yardıma ehtiyacı olan vətəndaşlar üçün vacib tədbirdir.

## GÜRCÜSTANIN BANK SEKTORUNDA ELEKTRON İMZA SİSTEMİ TƏTBİQ OLUNDU

Gürcüstan Milli bankının təşəbbüsü ilə, bank sektorunda elektron imza sistemi həyata keçirilib.

Kommersiya banklarından bu sistem hələlik yalnız "Prokredit bank"da mövcuddur, lakin yeni ildən digər kommersiya bankları da yeni sistemə qoşulacaqlar.

Elektron imza həm bankların xərclərini azaldır, sənədlərin mühafizə olunmasını yaxşılaşdırır, həm də istehlakçılara daha çevik sistem təklif edir.

Artıq Milli bankın yaratdığı mərkəzləşdirilmiş portal fəaliyyətə başlayıb ki, buradan istehlakçı istənilən vaxt elektron imzalı sənədləri orijinal kimi götürə bilər.

## GÜRCÜSTANDA HƏQİQİ HƏRBİ XİDMƏT LƏĞV OLUNA BİLƏR



"Hərbi xidmət və hərbi vəzifə haqqında" qanuna düzəliş etməyin təşəbbüskarı parlament azlığının üzvü Zurab Çaparidzedir.

Qanun layihəsinə görə, Xüsusi dövlət mühafizə xidmətində, Gürcüstan kəşfiyyat xidmətində, Gürcüstan DİN-də və Gürcüstan cəzaçəkmə və probasiya nazirliyində hərbi mükəlləfiyyət keçmək imkanı ləğv olunacaq. Bütün Gürcüstan vətəndaşları hərbi vəzifəni hərbi əməliyyatlar zamanı keçməyə borcludurlar.

Qanun layihəsi yalnız peşəkar hərbi xidmətin mövcudluğunu nəzərdə tutur, məcburi ehtiyat xidmətini isə ləğv edir.

Özünüidarə orqanlarında vətəndaşların uçotunu aparan, həqiqi hərbi xidmətə çağırışı həyata keçirən müvafiq xidmətlər aradan qaldırılacaq. Hərbi kontraktla xidmət keçmək üçün Gürcüstan müdafiə nazirliyi fərdi-hüquqi aktla deyil, normativ aktla kontraktın formasını müəyyənləşdirəcək.

Layihənin izahedici qeydlərində deyilir ki, həqiqi hərbi xidmət üçün müəyyən olunmuş maliyyə vəsaiti peşəkar hərbi xidmətin və Gürcüstanın müdafiə qabiliyyətinin yüksəldilməsinə yönəldilməlidir.

## GÜRCÜSTANIN FINDIQ İXRACI 163% ARTMIŞDIR

Xarici ölkə bazarlarında Gürcüstan fındığına olan tələbat artmaqda davam edir. Gürcüstan Milli statistika xidmətinin məlumatına görə, 2015-ci ilin yanvar-iyun aylarında ümumilikdə 73,675 milyon dollarlıq fındıq ixrac olunmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrün göstəriciləri ilə müqayisədə 163% artım deməkdir. Ötən ilin yanvar-iyun aylarında cəmi 28,003 milyon dollar dəyərində fındıq ixrac edilmişdir. Bir il ərzində fındıq ixracının payı 2%-dən 6,8%-ə qədər artmış və əsas ixrac məhsulları arasında dördüncü yeri tutmuşdur.

2014-cü ildə xarici bazarlara 183,4 milyon dollarlıq, 2013-cü ildə isə 166,7 milyon dollarlıq fındıq aparılmışdır.

## GÜRCÜSTAN RUSİYAYA QARŞI AVROPA İTTİFAQININ SANKSİYALARINA QOŞULDU

Gürcüstan Rusiya əleyhinə Avropa İttifaqının tətbiq etdiyi sanksiyalara qoşulub. Bu barədə Avropa Komissiyasının "Krım və Sevostopolun qanunsuz ilhaq edilməsinə qarşı məhdudlaşdırıcı tədbirlərə qoşulmaq haqqında" bəyannaməsində söhbət açılır. Iyulun 29-da məlum olmuşdur ki, Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi iqtisadi sanksiyalara daha altı ölkə – Montoneqro, Albaniya, İslandiya, Lixtenşteyn, Norveç, Ukrayna və Gürcüstan da qoşulub. Məlumatda bildirilir ki: "Namizəd ölkələr Monteneqro və Albaniya, eləcə də Avropa Azad ticarət Assosiyasiyasının üzvləri İslandiya, Lixtenşteyn və Norveç, Avropa iqtisadi zonasının üzvləri, o cümlədən Ukrayna və Gürcüstan bu qətnaməyə qoşulur".

## GÜRCÜSTANDA RUSİYA TƏBLİĞATI GÜCLƏNİR

Gürcüstanda Rusiya təbliğatı güclənir – belə süjetə malik "Digər aksentlər" verlişini "Rustavi 2" telekompaniyasının yaradıcı qrupu hazırlayıb. Verlişdə söhbət Gürcüstandakı Qərb əleyhinə olan və rusiyapərəst mövqeyi ilə fərqlənən qeyri-hökumət və media təşkilatlarından gedib.



Gürcüstanda Avroasiya institutu, Gənc politoloqlar klubu, Rus dialoqu üçün xalq hərəkatı və Avroasiya seçimi kimi qeyri-hökumət təşkilatları Rusiya meylli adlandırılıblar. Bu verlişə əsasən, "Aliya", "Gürcüstan və dünya", "Asaval-dasavali" qəzetləri, Qruzinform, eləcə də "İverioni" internet nəşri və "Obyektiv" media vasitəsi bu təşkilatların portnyorları hesab edilir.

Son vaxtlar "Obyektiv" media birliyinin efirində iki rusdilli film səsləndirilmədən və titrsiz getmişdir. Bunlardan biri təhlilçilər arasında Vladimir Putin haqqında təbliğat filmi kimi qiymətləndirilən "Prezident" adlı filmdir. Həmçinin "Obyektiv"in efirində Krım haqqında "Krım – vətənə gedən yol" adlı qalmaqallı filmin nümayiş olunmasıdır.

Ekspertlərin fikrincə, rusiyapərəst təbliğat ölkədə 2013-cü ildən xüsusilə fəallaşıb.

QHT-nın nümayəndələri rusiyapərəst təşkilatların maliyyələşməsinə diqqət yönəldiblər. Bəlli olub ki, sayı heç də az olmayan bu təşkilatların maliyyə yolları məlum deyil.

Gürcüstanda rusiyapərəst təbliğat dörd yolla – media təşkilatları, QHT, ruhanilərin bir hissəsi, siyasi partiyalar və onların liderləri vasitəsilə yayılır.

"Digər aksent"lərin aparıcısının və qonaqlarının sözlərinə görə, rusiyapərəst təbliğat əsasən "Amerika bizə gürcü olmağa imkan vermir", "Avropada insest qanunilәşdirilib", "Biz NATO-ya heç vaxt daxil ola bilmərik, Rusiya buna imkan verməz", "Rusiya ilə həmməzhəbik" kimi fikirlərlə yaradılır. Verlişdə sübut kimi rusiyapərəst təşkilatların nümayəndələrinin məqalələri və efir səsləri nümunə kimi verilmişdir.

## "ოქრო გადადის მოდიდან ისე, როგორც ფართოტოტებიანი შარვალი"

2015 წლის ბოლოსთვის 1 უნცია ოქროს ფასი 1 000 დოლარს ჩამოსცდება. ამის შესახებ ვარაუდს, "ბლუმბერგის" მიერ ჩატარებული გამოკითხვების მიხედვით, 16 ანალიტიკოსი გამოთქვამს. "ოქრო გადადის მოდიდან ისე, როგორც ფართოტოტებიანი შარვალი. არავის აღარ უნდა მისი ყიდვა. ამიტომაც ჩვენი მოსაზრებით ფასები უახლოეს მომავალში დაეცემა", - განაცხადა ინგლისელმა ანალიტიკოსმა, რობინ ბჰარმა.

ამ ეტაპზე მოვაჭრეები ოქროს გაყიდვას სწრაფ ტემპებში ცდილობენ. ყოველ წელს, პირველადი და გადამუშავებული ძვირფასი მეტალის დაახლოებით 60 პროცენტი სამკაულების დასამზადებლად გამოიყენება. დანარჩენი კი მონეტების და ზოდების სახით იყიდება. ამ დროის მონაცემებით, 1 უნცია ოქროს ფასი მსოფლიო ბაზარზე 1096 დოლარს შეადგენს.

## QIZIL ENLİBALAQ ŞALVAR KİMİ DƏBDƏN DÜŞÜR

2015-ci ilin sonuna qədər bir unsiya qızılın dəyəri 1000 dollardan aşağı düşəcək. Bu barədə "Bloomberg " tərəfindən aparılan sorğuya əsasən 16 analitik proqnoz bildirib. "Qızıl enli balaqlı cins şalvar kimi dəbdən düşür. Heç kim onu almaq istəmir. Ona görə də, bizim fikrimizcə ən yaxın gələcəkdə qiymətlər ağağı düşəcək" – ingiltərəli analitik Robin Brah bildirib.




Bu mərhələdə ticarətçilər qızılı sürətli tempdə satmağa çalışırlar. Hər il ilkin və işlənmiş qiymətli metalın təxminən 60 faizi cəvahirat hazırlamaq üçün istifadə olunur. Qalanı isə sikkələr və külçə şəklində satılır. Halhazırda mövcud olan məlumatlara görə, dünya bazarında bir unsiya qızılın qiyməti 1096 dollardır.

## İRAN GÜRCÜSTAN VƏTƏNDAŞLARINA VİZASIZ REJİM TƏTBİQ EDİR

İran yeddi ölkənin vətəndaşları üçün viza rejimini ləğv edib.

Yayılan məlumatda bildirilir ki: "İndi Gürcüstan, Türkiyə, Livan, Azərbaycan, Boliviya, Misir və Suriyadan gələn turistlər İrana vizasız səfər edə biləcəklər".

Bu ölkələrin vətəndaşları vizasız 90 gün İranda qalmaq imkanına malik olacaqlar. Bu tədbir ölkədə turizm sahəsini inkişaf etdirmək üçün həyata keçirilir.

Xəbərdə bildirilir ki, bundan əlavə İran hakimiyyəti 60 ölkənin vətəndaşları üçün də viza rejiminin ləğv edilməsi imkanlarını araşdırır.

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com



## İKİLİ STANDARTLARIN RUSİYA VARİANTI

**Cari ilin iyul ayının 8-də Böyük Britaniya tərəfindən BMT Təhlükəsizlik Şurasında təsdiq olunması üçün təqdim olunmuş Serebnitsa soyqırımı qətnaməsi həmin şuranın daimi üzvlərindən olan Rusiya Federasiyasının etirazı ilə qarşılaşmış və sənəd lahiyəsi qəbul edilməmişdir. Rusiyanın bu təşkilatdakı daimi nümayəndəsi Vitali Çurkin: " qətnamə təkçə Bosniya və Hersoqovinada yox, ümumiyyətlə, Balkanlardaki siyasi münasibətlərin yenidən gərginləşməsinə gətirib çıxaracaq, bundan başqa sənədin qəbulu avantüra və təxribat xarakter daşıyır", – deyərək rəsmi Moskvanın mövqeyini açıqlamışdır.**

Xatırladaq ki, Təhlükəsizlik Şurası sözü gedən təşkilatın daimi fəaliyyətdə olan ən vacib orqanıdır. Beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsində birbaşa məsuliyyət daşıyan bu orqanın 5 daimi (ABŞ, Rusiya, Böyük Britaniya, Çin, Fransa) və 2 il müddətinə seçilən 10 qeyri-daimi üzvü var. BMT Təhlükəsizlik Şurasının qəbul edəcəyi qətmanə yekdilliklə təsdiq edilməlidir. Əks tədqirdə sənəd qəbul olunmamış hesab edilir. Şuranın daimi üzvləri ayrı-ayrılıqda konkret sənəd lahiyəsinə veto qoymaq hüququna malikdirlər. Qeyd edək ki, 1991-1995-ci illərdə keçmiş Yuqoslaviyada baş vermiş vətəndaş muharibəsi bu dövlətin dünyanın siyasi xəritəsindən silinməsi ilə yanaşı, Bosniya müsəlmanlarının soyqırımı ilə də tarixə düşdü. Müharibə zamanı Bosniya müsəlmanları kütləvi şəkildə məhv edilmiş, sürgün olunmuş və işgəncələrə məruz qalmışlar. Münaqişənin gedişatında yaşanmış ən dramatik hadisələrdən biri 8 iyul 1995-ci ildə baş vermişdir. Hənin gün serb hərbi komandanı general Ratko Mladiçin başçılığı altında 8 min bosniyalı müsəlman qətlə yetirilmişdir.

Söhbətmizin əsas məqsədi konkret məsələ ilə bağlı Rusiyanin qərəzli və ədalətsiz mövqe sərgiləməsindən ibarətdir. İlk öncə vurğulayaq ki, məhz Serbiya parlamenti 2010-cu ilin mart ayında qətnaməni təsdiq edib və serblərin Serebnitsada törətdikləri qətliamı etiraf edərək, bosniyalı müsəlmanlardan üzr istəyib. Yəni, başqa sözlə desək, serblər törətdikləri insanlıq suçunu özləri etiraf edirlərsə, Rusiya niyə və nəyə etiraz edir və bölgədə yenidən hansı münasibətlər gərginləşə bilər? Əksinə, məsələyə hüquqi qiymətin verilməsi münasibətlərin normallaşmasına təkan vermiş olar. Digər tərəfdən Qərb dünyasının Rusiya Federasiyasına qarşı tətbiq etdiyi çoxçeşidli və çoxsaylı embarqolar fonunda Rusiya-Türkiyə münasibətlərinə kölgə salacaq qondarma erməni soyqırımını Kremlin təsdiq etməsi hansı siyasətin, hansı pozuq məntiqin nəticəsidir? 2020-ci ilədək türk-rus ticarət dövriyyəsini 100 milyard dollara qədər artırmağı hədəfləyən Rusiyanın bu planı gerçəkləşdirmək prespektivi heç də parlaq görünmür. Bir neçə gün bundan öncə Cənubi Osetiyada dislokasiya olunan rus qoşunları bir neçə yüz metr Gürcüstanın iç ərazilərinə doğru irəliləyərək Bakı-Supsa neft kəməri xəttinin bir hissisini nəzarətə götürüblər. Bununla da neft kəmərinin təhlükəsizlik məsələsi şübhə altına düşmüşdür. Aydın məsələdir ki, bu, dünya neft və qaz bazarında müştərilərini itirən və ya itirmə təhlükəsi yaşayan Rusiyanın növbəti təhdididir.

**Əslində avantüra və təxribatın yeganə mənbəyi məhz Rusiyanın özüdür. Bu il aprelin 22-də Rusiya prezidenti V.V. Putin 24 aprel 1915-ci il hadisələrini "bəşər tarixinin ən dramatik hadisəsi" adlandırmış və bununla da qondarma erməni soyqırımını rəsmi olaraq təsdiq etmişdir. Əgər hər iki hadisəyə paralel rakursdan baxsaq Rusiyanın necə qərəzli və ədalətsiz mövqe tutduğunu görmüş olarıq. Necə olur ki, Kreml 100 il bundan əvvəlki qaranlıq, şübhəli məsələyə hüquqi qiymət verir, amma dünyanın gözü önündə 20 il öncə baş vermiş hadisəni görməzdən gəlir. Məgər, Moskva qondarma erməni soyqırımını tanımaqla bölgədəki vəziyyəti və normallaşması hazırkı dövr üçün qeyri-mümkün olan Türkiyə-Ermənistan münasibətlərini daha da gərginləşdirməyəcəkmi? Bəs görəsən Rusiyanın hər iki məsələyə bir-birinə zidd və fərqli yanaşmasının səbəbi nədir? Ən böyük siyasi suç bir millətin ən incə, kövrək, bəlkə də qəhrəmanlıq ünvanını öz çirkin siyasətinə alət etməkdir.**

# İNSANLIĞIN BƏLASINA ÇEVRİLƏN NARKOMANİYAYA

***Müasir dövrümüzdə kifayət qədər gözəl keyfiyyətlərə sahib olan savadlı, əxlaqlı və istedadlı gənclərimizin olması xeyli ümidverən, ürəkaçan haldır. Ancaq qəbul etmək lazımdır ki, hələ tam olaraq öz həyat yolunu müəyyən etməmiş gənclərimiz də vardır ki, onları sağlam həyat tərzindən çəkindirib, içkiyə, qumara, narkotikə və s. əyri yollara alışdırmağa çalışan güclər də yox deyillər və onlar "yuxarılardakı" havadarlarına arxalanaraq öz çirkin əməllərini gerçəkləşdirə bilmələri üçün hər vasitəyə əl atırlar. İstəkli oxucu ilə bu dəfə narkomaniya haqqında düşüncələrimi bölüşmək istəyirəm.***

Cəmiyyətimizdə narkomaniyaya qarşı münasibətin – "Şükür Allaha, mənim övladım narkoman deyil, bu məsələnin mənə nə dəxli var?" – şəklində olması bir vətəndaş kimi daim məni düşünməyə vadar edən və əndişələndirən bir haldır. Kimsə hesab etməməlidir ki, bu dəhşətli bəla ondan uzaqdadır. Əslində, narkomaniya problemi hər bir vətəndaşın qapısının ağzındadır! "Narkotik" yunan sözü "narkotikos"dandır və "uyuşduran", "uyuşdurucu", "keyfləndirən", "uyudan" mənalarını verir. Tibb elmində bu maddədən hələ 1897-ci ildən başlayaraq ağrıkəsici, yuxu vasitəsi kimi istifadə edilir. Lakin təəsüf ki, çox zaman bu vasitədən təyinatına uyğun istifadə edilmir ki, bunun da heç cür qarşısı alınmayan, çox ağır və düzəlməz fəsadları ortaya çıxır. Dünyanı insanlara dumanlı göstərən, ağlı, zəkanı kütləşdirən narkomaniya mövcud olduğu gündən normal cəmiyyət üçün həllimüşkül olan problemə çevrilmişdir... Narkomanlıq və ya "ağ ölüm" – bu gün dünyamızı narahat edən ən ciddi və mürəkkəb problemlərdən, bəşəriyyətin düçar olduğu böyük bəlalardan biridir ki, bu sarıdan durum getdikcə daha da pisləşməkdədir. Məlum məsələdir ki, bu bəlaya tutulan kəs nəinki özünü, eyni zamanda gələcək nəslini də məhvə sürükləyir. Milli genofondun mənəvi və əxlaqi dəyərlərinə sarsıdıcı zərbə vurur. Fiziki və psixoloji cəhətdən qüsurlu uşaqların sayının artımına səbəb olur.

Son zamanlar bu bəla Gürcüstanda da yüksək və təhlükəli həddə ulaşmışdır. Rəsmi məlumata görə Gürcüstanda 17 000-in üzərində narkoman qeydiyyata alınmışdır. Müqaisə üçün deyək ki, 9 milyondan çox əhalisi olan Azərbaycanda bu rəqəm 27 910 nəfərdir. Lakin yerli və xarici ekspertlərin hesablamalarına əsasən əslində narkomanların sayı dəhşətli dərəcədə çox olub, 200 000-350 000 nəfər arasındadır. ABŞ Dövlət Departamentinin məlumatına görə, adambaşına narkotik istifadəsi sahəsində əhalinin sayına görə Gürcüstan dünyada lider dövlətdir. 4 milyon əhalisi olan Gürcüstanın 270 000 nəfər narkomanı vardır. Həyacan siqnalının çalındığı belə bir acınacaqlı durumda narkotik istifadəsinin dekriminalizasiya-leqallaşdırılması tələbi ilə Tbilisidə nümayişlər keçirilir, parlament isə qanunvericilikdə bu barədə dəyişirikliklərin edilməsi haqqında müzakirələrə hazırlaşır. Bu gün narkotik istifadəsinin dekriminalizasiyasını-leqallaşdırılmasını vacib sananlar qonşumuz Rusiyanın yaxın keçmişinə nəzər yetirsələr görərlər ki, təxminən 10 il bundan əvvəl orada bu sahədə liberalizasiya aparılmış,



yəni narkotik istifadəçilərinə qarşı administrativ və cinayət məsuliyyəti nəzərdə tutan maddələr qaldırılmışdır. Lakin çox az bir zaman keçmiş ölkədə olduqca ağır vəziyyət yaranmışdır. 2004-cü ildə Rusiya psixiatrlarının qurultayında baş narkoloq məruzəsində bu barədə yekun nəticələri açıqlamışdır. Bu açıqlamaya görə, Rusiyanın 16 şəhərində 13 yaşlı yeniyetmələrin az qala hamısı narkotik vasitələrdən istifadə etməyə qurşanmışdır. Vəziyyəti normallaşdırmaq üçün qanunverici orqan 2005-ci ildə əski qanunu təcili surətdə bərpa etməli olmuşdur. Hollandiyada Amsterdamın bəzi rayonlarında oxşar qanunu qəbul etdikdə də eyni nəticə əldə edilmişdi, ümumiyyətlə, bu sahənin mütəxəssislərinin gəldikləri yekdil nəticəyə görə, bir çox ölkələrdə narkotikin dekriminalizasiya cəhdləri narkotik istifadəçilərinin dəhşətli dərəcədə artmasına səbəb olmuşdur.

Əslinə qalsa, zəngin uyuşdurucu "arsenalından" gündə birinin dadına baxaraq tənəzzülə uğramaqda olan cəmiyyətimizi incidən bütün problemlərdən yaxa qurtarma imkanı da göydəndüşmə olur, elə bil. İstər iynələn, istər tüstülən və nə bir ucdan bahalaşan həyatda işsiz qaldığını, nə sürünə-sürünə yaşadığını, nə torpaqlarının işğal olunmasını, nə erkəyi-dişisi bilinməyənlərin sinələrinə döyüb qürur etmələrini, nə söhbət etmək üçün adam tapa bilmədiyini, ümumiyyətlə, nə də insanların insanlıqdan çıxmasını vecinə al! Qoy hər məsələnin altı altında, üstü də üstündə qalsın! Bu əyri dünyanı sənmi düzəldəcəksən?! Əlbəttə ki, bunlar kinayədən başqa bir şey deyil.

Lakin bu cəmiyyətə nələr olur düşüncəsi də insanı rahat buraxmır. ey bir vaxtları Azadlıq uğrunda mübarizələrə səhnə olan gidi Rustaveli prospekti, güya bu ölkədə başqa problemlər yoxmuş kimi, bundan əvvəl "mavilərin" və digər "qəhrəmanların" parad eşqinə, indi də narkomaniya kimi qorxunc bir bəlanın dekriminalizasiya-leqallaşdırılma istəyinə səhnə olursan. Bu yol Gürcüstanımızı haralara qədər apara bilər, əcəba? İnanıram ki, sağlam düşüncə sonunda qalib gələcək, ali qanunverici orqan öz yüksəkliyində duracaq və insanı insanlıqdan çıxaran, uçuruma sarı yuvarlayan bu cür yanlış qanunların qəbul olunmasına yol verməyəcəkdir. Bəlkə açıq-saçıq "tüstülənmə" kimi saçma qanunun qəbul edilməsi barədə müzakirələrdənsə, yeni iş yerlərinin yaradılması, ya heç olmazsa, getdikcə bir əldən zəifləməkdə olan mütaliə probleminin bir təhər yüksəldilməsi barədə nə isə tədbirlər görülə? Nə isə, bütün gənclərə sağlam həyat tərzi və xoşbəxtlik arzulayıram!

Cambul MƏMMƏDLİ

## სამართალდარღვევის გამო, ცხრა აფთიაქს ლიცენზია გაუუქმდა



ფსიქოტროპული ნივთიერებების ურეცეპტოდ გაცემის ფაქტებზე, 2015 წლის 1-ლი იანვრიდან 29 ივლისის ჩათვლით, 69 ადმინისტრაციული ოქმი შედგა.

საქართველოს შრომის, ჯანმრთელობისა და სოციალური დაცვის სამინისტროდან აცნობეს, გამოვლენილი სამართალდარღვევის გამო, 9 აფთიაქს ლიცენზია გაუუქმდა. დანარჩენ შემთხვევაში ფულადი სანქციები დაეკისრათ.

"დადგენილების მიხედვით, ფსიქოტროპული ნივთიერების რეალიზაციის ფაქტებზე, პირველ ჯერზე ჯარიმა განისაზღვრება 6000 ლარის ოდენობით. მეორე და ყოველი შემდგომი შემთხვევა ითვალისწინებს ფულად ჯარიმას 12 000 ლარის ოდენობით. იმ შემთხვევაში, თუ ფსიქოტროპული ნივთიერებების რეალიზაციის ფაქტი ერთიადაიგივე აფთიაქში ერთი წლის განმავლობაში სამჯერ დაფიქსირდა, რეგულირების სააგენტო, სასამართლო დადგენილების საფუძველზე უფლებამოსილია აფთიაქს ლიცენზია გაუუქმოს."- აცხადებენ ჯანდაცვის სამინისტროში.

## QANUN POZUNTUSUNA GÖRƏ 9 APTEKİN LİSENZİYASI LƏĞV EDİLİB

Psixoterapiya preparatlarının reseptsiz verilməsi faktı ilə bağlı 2015-ci ilin yanvarın 1-dən iyulun 29-na qədər 69 inzibatı akt tərtib edilib. Gürcüstan əmək, səhiyyə və sosial müdafiə nazirliyinin məlumatına görə, qanun pozuntuları səbəbiylə 9 aptekin lisenziyası ləğv edilib. Qalan hallarda isə maddi sanksiyalar tətbiq olunub.

"Qanuna əsasən, psixoterapiya preparatlarının verilməsi faktlarında birinci dəfə 6000 lari, ikincə və sonrakı hallarda isə 12 000 lari dəyərində cərimə müəyyənləşdirilir. Əgər bir il ərzində preparatın verilməsi halı eyni aptekdə bir neçə dəfə qeydə alınarsa, tənzimləmə agentliyi qərar əsasında aptekin lisenziyasını ləğv etmək üçün səlahiyyətlidir ", – səhiyyə nazirliyi bildirir.



## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN DAHA BİR GÖMRÜK MƏNTƏQƏSİNİ BƏRPA EDİR

Azərbaycan və Gürcüstan sərhədində daha bir gömrük buraxılış məntəqəsi bərpa olunub.

Azərbaycan Dövlət gömrük komitəsindən verilən xəbərə görə, Sadıxlı gömrük buraxılış məntəqəsi avqustun 10-undan fəaliyyətini bərpa edəcək.

"Saat 8.00-dan saat 20.00-dək məntəqədən yüngül minik nəqliyyat vasitələri buraxılacaq, piyadaların buraxılması isə gecə-gündüz olacaq" – məlumatda bildirilir.

İyulun 28-də iki ölkənin gömrük işçiləri gömrük məntəqəsinə birgə baxış keçirmişlər.

## 2014-CÜ İLDƏ GÜRCÜSTANA SİQARET İDXALI 19% ARTIB



2014-cü ildə ölkəmizə 8,2 milyard ədəddən çox siqaret idxal edilmişdir ki, bu da 2013-cü illə müqayisədə 19% çox deməkdir. Bu barədə Gürcüstan milli statistika xidməti "Sakstat" məlumat yaymışdır.

İdxal olunmuş siqareti pulla ifadə etdikdə 114,9 miliyon dollar təşkil edir ki, bu da 2013-cü illə müqayisədə 21% artıqdır. Xatırladaq ki, 2013-cü ildə ölkəmizə 95,2 miliyon dollarlıq siqaret idxal olunmuşdur.

Hesabat dövründə siqar və siqarill idxalı 2 milyon ədədə yaxın olmuşdur ki, bu da 2013-cü illə müqayisədə 30,5% çoxdur. Siqar və siqarill idxalını pulla ifadə etdikdə 573,1 min dollar edir ki, bu da ötən ilkindən 5% çoxdur. 2013-cü ildə isə 545,7 min dollar dəyərində siqar və siqarill idxal olunmuşdur.

# ACI SONLUQLA BİTƏN MAŞIN ARZUMUZ

Bizim atalarımızın əski dönəmlərdən qalma bir müdrik deyimi var. Mən durub o deyimi burada verən saat hamı bu deyimdən xəbərdar olduğunu, üstəgəl də, atalarımızın düz qənaətə gəldiyini izhar edəcək. Bunu təkcə xislətində paxıllıq olanlar etiraf etməkdə çətinlik çəkəcəklər ki, bu da onların öz problemidir, özləri bilər. Biz onların qəlbində paxır bağlamış paxıllıqlarını paklayası ha deyilik. Atalarımız paxıl qonşu haqqında da bir əndərəbadi kəlam söyləyiblər və mən həmin kəlamı burada verməyəcəm, onu başqa bir yazımın gözünə qatacam. Bu belə. Indi sizi intizarda saxlamadan deyim ki, atalarımız qonşunu iki inəkli istə, özün bir inəkli olasan kimi bir sanballı kəlamı biz varislərinə mənəvi miras qoyub gediblər. Sadəcə biz dədələrimizin həmin məşhur kəlamını müasirləşdirmək zorundayıq. Nədən ki, dədələrimiz aşıq gördüyünü çağırar prinsipi ilə hərəkət edərək, öz dövrünün ən qiymətli və əsas dolanışıq vasitəsinin birini özünə, bunun iki mislini isə qonşusuna arzulamaqda haqlı deyildilərmi? Haqlı idilər, hələ bir az da artıq.

Hə, orasını da diqqətinizə ərz edim ki, həmin "qonşunu iki inəkli istə, bəlkə özün də bir inəkli olasan" deyiminin müasir variantını yaratmaq üçün xeyli baş sındırmalı oldum. Və birdən hardansa eşitdiyim və ya oxuduğum və ola bilsin ki, öz beynimin harasındasa oyanmış – üzülərək söyləyim ki, atalar sözümüzün müasir variantının müəllifliyi məsələsində çox xırdaçılığa vardığımın da fərqindəyəm – "qonşunu iki maşınlı istə, özün bir maşınlı olasan" variantından dördəlli yapışdım. Doğrudan da qonşunun yaxşı günlü olmasını arzulamaq qədər gözəl bir hissi yaşamağın ləzzəti hər adama qismət olmur. Belə bir düşüncəyə sahib olanları mən dünyanın xoşbəxtlərindən sayıram. Nə olar gəlin elə hər birimiz qonşumuza sidqi-ürəkdən iki, lap elə üç-dörd maşın arzulayaq. Dədəmizin bir şeyi ha çıxmır, bizdən nə gedir, bir xoş arzudur qonşumuza edirik və bu arzumuzun yaratdığı duyğu seli içərisində xoşhallanırıq.

Qonşumuza iki və daha çox maşın arzulamağına arzulayaq. Vallah, mənim bu arzuya ikiəlli razı olacağım şəksizdir. Lakin gəlin qonşumuza iki maşın arzulamaqla bərabər, həm də ona bu maşın(lar)ın içərisində qadasız-qəzasız yollar qət etməyi də arzulayaq. Maşının bir nəqliyyat vasitəsi, bir yerdən başqa yerə getmək üçün bir hərəkət mexanizmi olduğunu da unutmayaq. Dilim dinc dayanmır, gərək deyəm. Maşınlı olmaq heç kimə üstünlük verməməlidir. Bir, lap yüz maşına malik olmaq şəxsin mənəvi keyfiyyətinin aşıbdaşdığına dəlalət etmədiyi kimi, heç maşınsızlıq da mənəvi zənginliyin ölçü vahidi ola bilməz. Mənəvi zənginlik tamam başqa bir keyfiyyətdir ki, bu məsələdə məndən də yaxşı fikir yürüdə biləcək şəxslərimiz yox deyil.

Deyək ki, qonşumuza iki, lap elə ağızıbir on maşın arzuladıq və bizim bu gözəl arzumuz da yerinə yetdi. Qonşumuz da maşının birindən düşüb, digərinə mindi və maşın(lar)ını da köhlən at kimi səyirtdi. Kimini toza basdı, kimini çamur hamamında çimizdirdi. Bunlara qonşuluq xatirinə dözmək də, o qədər çətin deyil. Işin pis tərəfi ondan ibarətdir ki, qonşumuza "n" qədər maşın arzulamaqla biz az qala özümüzü təhlükəyə atmalı olmuşuq. Mənə irad tutub deyən olar ki, bayaq nə danışırdın, indi nə danışırsan? Hə, mən sizinlə razılaşıram ki, bəli, mənim fikirlərim bir-birinin tərsidir, bir-birini inkar edir. Özüm də bunun fərqindəyəm. Amma ortada acı gerçəklik var: qonşumuz sürət dəlisi imiş, sürətə düşkün, adernalin həvəskarı imiş və nə bilim başqa hansısa xəstəliyi var imiş. Qonşumuz dayanmaq bilmir, "asta sür maşını, amandır sürücü" dedikcə daha da qızışır, sanki istədiyi Mustafa Sandalın sözü ilə desək "onun arabası var" bəxtəvərliyini qazanmaqdır. Və yəqin ki, qonşumuza iki maşın arzuladığımız günə lənətlər yağdırmağın yeri olduğuna artıq özümüzü inandırmalıyıq. Yoxsa, bu maşınların nələrə qadir olduğunu gördükdə çox gecikdiyimizi dilə gətirəcəyik.

...Biz bir də gözümüzü onda açırıq ki, qonşumuz ya maşın qarışıq özünü, ya da maşınlı-maşınsız bir Allah bəndəsini o dünyaya göndərib. Bu da bizim hekayəmizin acı sonluğu olur...

P.S. Xatırladaq ki, ölkəmizdə 2014-cü ildə 1054000 maşın qeydiyyatdan keçib və az qala hər üç nəfərdən birinin maşını var. Bu sahənin biliciləri maşınların sayının bu cür artmasını hər mənada təhlükəli hesab edirlər.

A. M. ALISOY

# GÜRCÜSTANIN AVROPA İTTİFAQI ÖLKƏLƏRİ İLƏ XARİCİ TİCARƏT DÖVRİYYƏSİ İLİN ƏVVƏLİNDƏN 2% ARTIB

Avropa İttifaqı ölkələri ilə Gürcüstanın xarici ticarət dövriyyəsi 2015-ci ilin birinci yarısında 1 milyard 434 milyon dollar olmuşdur. Gürcüstan statistika xidməti "Sakstat"ın məlumatına görə, bu, 2014-cü ilin yanvar-iyun ayları ilə müqayisədə 2% artıqdır.

Bununla belə ixrac 293 milyon dollar, keçən ilin müvafiq dövrü ilə müqayisədə 2% az, idxal isə 1 milyard 141 milyon dollar və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 3% çox olmuşdur.

Gürcüstanın xarici ticarət dövriyyəsinin 30%-i Avropa İttifaqı ölkələrinin payına düşmüşdür. 2014-cü ilin yanvar-iyun aylarında isə bu göstərici 26% təşkil etmişdir. Gürcüstanın mənfi ticarət balansının 33%-i Avropa İttifaqı ölkələrinin payına düşmüşdür. Ötən ilin



müvaq dövründə isə bu göstərici 31% olmuşdur.

2015-ci ilin yanvar-iyun aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi qeyri-mütəşəkkil ticarət nəzərə alınmadan 4 milyard 761 milyon dollar olmuşdur ki, bu da 2014-cü ilin analoji dövrü ilə müqayisədə 13% azdır.

Afayət AFİQ



# SAĞLAMLIĞIMIZIN DƏYƏRİNDƏ BAŞ VERƏN ENDİRİM

**Nənəmin sümüklərinə hər zaman həsəd aparırdım. Yüz yerdən ayağı sürüşüb yıxılırdı, yenə də bir şey olmurdu. Nə qırıq, nə çıxıq... Rəhmətlik biz qır çeynəyən olmuşuq deyirdi. Ağ toyuqlar var ha, baxanda adamın çiy-çiy yemək istədiyi broyler toyuqları deyirəm. Nənəm onu yemirdi, təklif edəndə hələ bir bəzəkli qarğış da vururdu.**

Sənə min rəhmət, nənə. Düz edirmişsən. Sən demə, arvad gördüyünü qoyub qondarma görəcəyə getmirmiş. Sağlığına, lap elə ən sadəsi ağız dadına xələl gətirmək iştəmirmiş.

Bəs biz? Görün biz nələr edirik? Sağlığımızı, həyatımızı hər gün, hər saat qram-qram satmaqla məşğuluq. Alıcının gözü qorxmasın deyə ucuz qiymətlərə, yüksək keyfiyyətləri satırıq. Sağlığımızdan hər gün bir parça piştaxtalara, mağaza rəflərinə, sigaret tüstüləri vasitəsi ilə buludlara, zibilliklərə peşkəş göndəririk. Sağlığımızın dəyəri inanılmaz endirimdədir. Dad aldığımızı sanıb, sağlamlıq satırıq, gözəllik aldığımızı sanıb, yenə sağlamlıq satırıq.

Son zamanlar sağlamlığımızın məzənnəsi ağıla sığmayacaq dərəcədə aşağı düşüb. Dərmanı belə sağalmaq üçün yox, ölmək üçün alırıq. Çünki, bıçaq sümüyə dirənməmiş yaşamaq haqqında düşünmürük. Bəli, zillət çəkmək ehtimalı gözümüzün önündən ildə, qərinədə bir keçir, lakin özümüzə bir şey olmaz, mənə rast gəlməz kimi fikirlərlə toxtaqlıq veririk. Nə deyib atalarımız, xəta gəlirəm deməz. Düz deyiblər xəta gəlirəm demir, yenə də biz onun qoxusunu duyanda burnumuzu tutmaqla kifayətlənirik. Şəklini görəndə üzümüzü çevirməklə yetinirik. O da, namərdin lap öndə gedənidi, gəlir arxadan vurur. Bir baxdın ki, yanın yerdədi. Məhşur qarğışımız var "yanın yerdə qalsın". Bu bəddua ilə kimsənin yıxılacağına inanmıram da. Ağacı qurd içindən oyar. Özümüz öz əllərimizlə, hər şeyə ötəri baxmağımızla düşürük yanı üstə. Qidalanmamıza fikir verməк səviyyəsi – sıfır. Vallah da sıfır, billah da sıfır...

Xəstəlik daşıyırıq bir-birimizə. Bir-iki misal deyim, susacam. Xəstələnmiş bir yaxınımızın yanına gedirik. Əli boş getmirik, təbii ki, bu bizim gözəl keyfiyyətlərimizdən biridir. Allah verəndən əlimizdə aparmaq lazımdır. Özümüzü bazara vurub, "peçattı meyvələr" adı ilə yaxşı tanıdığımız, xaricdən gətirilən, üzərində etiketi olan, ən pisi də geni dəyişdirilən meyvələrdən vururuq zənbilə. Harada irisi, harada etiketlisi var onu seçirik. Odu bahasına. Satıcı xala da bunu bizə fəxrlə sırıyır, get, gəz bütün bazarı, gör varmı beləsi deyə. Yeri gəlmişkən, ölkəmizdə məhsulların üzərinə "QM" işarəsi vurub, malın geninin dəyişdirildiyini xatırlatmaq istəyi gündəmdədir. Məhsul istehsal edən borcundan çıxıb, alıcıya məhsulunun necəliyi barədə məlumat verir. Bu işarəni görən alıcı məhsulu alıb, almamaqda sərbəst olacaq. Hələ müzakirələr gedir.

Alırıq, aparırıq xəstənin yanına canından xəstəlik yağan meyvələri, sovqat deyə aparırıq. Səhəri imkan düşən kimi əlimizə kim keçsə, filankəsin yanına çaynik boyda alma almışdım deyərək, özümüzlə qürur duyuruq. Yan dəzgahda yerli xırda, bir yanını qurd yemiş, sifətini dolu döymüş meyvə də düşünün. Əla. Düşündük, göz önündə canlandırdıq. Onu alıb apararıqmı, iraq ola, tərs gedə nə danışırsan, belə şeyi adımıza, sanımıza təbii ki, yaraşdırmarıq. Ya bizə elə meyvə gətirənə nə kimi sözlər ünvanlayarıq? Siz məndən yaxşı bilirsiniz. Anlamadığım, biz bunların ağu-zəhrimar olduğunu, genləriylə oynanıb bu hala gəldiyini əla bilirik. Canı dolu dərmandır, sözünü hamımız eşitməmizə rəğmən, hamımız da istifadə edirik. Niyə? Cavab çox sadədir. Sağlamlığımız, vecimizə deyil.

**İnsan yeganə varlıqdır ki, sonunda bir dəfə insan kimi ölmək varkən, yaşarkən də ölməkdən bezmir. Hər gün ölür. Damcı-damcı ölür. Damadama göl olur ölüm. Və nəticədə biz ölümün bir halından digər halına keçirik. Aqreqat halımız dəyişir, vəssalam. Bizdə diri ölmür, ölü ölür. Məncə, hamı razılaşmalıdır, onsuz da öləcəyiksə yaşayaq, sonra ölək... Yəni ölmək qabaqdadır. Nə vaxt olsa, lap elə sabah ölümü başı dik, alnı açıq qarşılayaq. Sürünə-sürünə deyil.**

# HƏR SONUN BİR BAŞLANĞICI VAR



Ölüm bir son deyil. Başlanğıcdır. Körpüdür. Ölümü yox sayan və nəticəsiz olaraq görən insan, həyatın mənasını anlamayandır. Onun üçün həyat, təsadüflər oyuncağıdır, qəbir qaranlıqlara açılan bir qapı, əcəl bütün sevdiklərindən bir daha qovuşmamaq üzrə ayrılıqdır. Bunun üçün axirətə inanmayan kimsənin ruhu acılı, ağrılı və iztirab içindədir; dəhşət və vəhşilik içindədir, mənən qıvrılmaqdadır. Belə bir insana nə təsəlli verə bilər?

Hər mövsüm yaşanan hadisələr göstərir ki, ölüm yeni bir həyatın başlanğıcıdır və o həyata çata bilmək üçün keçirilməsi lazım olan bir təmizlənmə hərəkətidir. Digər bir ifadəylə, dünyanın ağırlıqlarından xilas olmaqdır. Payızda çürüyən, quruyan və özündə həyatdan əsər qalmayan köklər, budaqlar və toxumlar, yazın o hər yerdən həyat fışqıran bayramına hazırlanar və vaxtı gəldiyində yeni bir həyata qovuşarlar. Bir gün biz də, o toxumlar kimi torpağa düşəcəyik. Hər nə qədər bu müddət üçün torpağa qarışsaq belə, bizim də əbədi bir baharımız vardır və gələcəkdir. Bəli, doğumla bu aləmə qovuşulduğu kimi, ölümlə də bir başqa aləmə qovuşulacaq. Və toxum, torpaqda çürüməsinə baxmayaraq, oradan necə bir başqa həyata qovuşub səmaya doğru budaq atırsa, insanın cəsədi də ölümlə çürüyəcək, lakin ölümsüz ruhuyla əbədi bir aləmdə həyat tapacaq. Yeraltındakı toxum, necə yerüstündəki ağac halını və günəşli dünyanı idrak edə bilmirsə, onu əvvəldən düşünə bilmirsə, biz də bu halımızla, əbədi həyatı ölümdən əvvəl anlaya bilmərik. İnsan üçün ölüm, ipəkqurdunun barama içindəki dövrü kimidir. Ipəkqurduna, qəbir kimi dar baramasından çıxdıqdan sonra kəpənək olacağı və özünə bir qanad lütf ediləcəyi bildirilsə, qurd ona inanmaqda çətinlik çəkəcəkdir. İnsan da, əbədi aləmdəki həyatını anlamaq nöqtəsində o ipəkqurdu qədər acizdir. Çünki bütün duyğuları, bu dünya ölçülərinə görə çalışmaqdadır. Ancaq içindən gələn bir səs, ona əbədi aləmlərin var olduğunu qışqırıb durur. İnsanın susaması suya işarə edər və onun varlığını göstərər. Bu, su ilə insan arasındakı xüsusi və içdən bir əlaqədir. Insanın axirət aləminin varlığını iç dünyasında sezməsi axirətin varlığına ən böyük dəlillərdən biridir. Və ya heç olmasa belə bir aləmin olmasını və yaradılmasını tələb edir. Ən kiçik bir canlını, qarışqanı da mükəmməl bir şəkildə bəsləyən və istədiyini verən Rəbbimiz, bizə də bütün duyğularımızla sevdirdiyi axirəti, əlbəttə verəcək. Onsuz da axirəti verməkistəməsəydi, onu istəmək duyğusunu da biz insanlara verməzdi. Bütün insanlığa təsir edən və əhatə edən bu gerçəyin, boş və quru bir iddia olmadığı açıqdır. Bu arzunu insanın ürəyinə qoyan kim isə, onu verəcək olan da ondan başqası olmayacaq, əlbəttə.

"Hər nəfs ölümü dadacaq!" Bunu hər kəs bilir, amma çox az insan, bu barədə düşünür. Nəfs, özünü bu qəti hökmün xaricində tutmaq istəyir. Ölümü xatırlasa belə başqaları üçün xatırlayır. Unutmaq üçün də əlindən gələni edir. Ölümü düşünmək məcburiyyətindəyik. Ölməyi öyrənmək, onun şagirdi olmaq məcburiyyətindəyik. Ömrün sonudur bəlkə, amma həyatın da sonudurmu? Əlbəttə, yox! Həyat, bədənsiz bir şəkildə yaşamağa davam edəcək. Ölümlə üzləşənlər, ölməyi bilənlər fərqindədir bunun. Ölümü xatırlamaq acı verməz onlara. Ölüm bir başlanğıcdır. Əslində ölümü özümüzə biz düşmən edirik. Zamana və məkana sığmayan arzularımızı, duyğu və düşüncələrimizi 40-50 illik dar bir zamana sığdırmaq istəyimiz bizim üçün ölümü dadsız edir. Qəbirdən kənara keçə bilməyəcək sevdalara, ancaq qəbrə qədər sürəcək dostluqlara özümüzü həbs etdiyimiz an, iç dünyamızda bir tərəddüd başlayır. Keçici şeylər bizə hüzur vermir. Hər ayrılıq bizi ağrıya boğur. Əsrlərdir əbədi bir həyatın düsturunu axtarır insanlıq. İnsan ruhu, sonsuzluğa məftun olduğu üçündür ki, bütün peyğəmbərlər, təbliğ etdikləri axirət inancı, yəni əbədi bir həyat müjdəsiylə, ölümün dəhşət verən üzünü işığa çevirmişlər.

Qərbdə xüsusilə son iki əsrdə ortaya çıxan və daha çox qarışıqlıq şəklində gözə dəyən fikri və ictimai hərəkətliliyin əbədi həyatın inkarından qaynaqlandığını söyləmək çox çətin olmamalıdır. Hüzur, statistik rəqəmlərdəki böyümə xüsusiyyətlərində axtarılarkən, bazara yeni-yeni oyuncaqlar çıxardılar. Radio, kino, avtomobil, televiziya, kompüter, internet oyuncaqlarıyla əylənib, gəzdilər. Spirt və narkotik kimi "unutdurma" alətləriylə nə dünəni, nə sabahı düşünüb xatırlamamağa çalışdılar. Bəzi insanlar isə, geridə buraxdıqları əsərlərlə yox olmaqdan xilas olacaqları ümidiylə təsəlli taparlar. Axirətin varlığını öldükdən sonra anlamaq, insanoğlu üçün nə dünya hüzurunda, nə də əbədi həyatın qurtuluşunda bir nəticə verməyəcək. Bizi gözləyən sonsuz həyat üçün verilən imtahanı bacarmaq, ömrümüzü hesab gününün sahibinin əmr etdiyi istiqamətdə keçirməmizi tələb edir. Bax, o zaman, ölüm bir əbədi ayrılığa, heçliyə, yoxluğa, çürüməyə, unudulmağa, bir qaranlığa açılan qapı mahiyyətindən çıxıb, ölümün olmadığı, gəlmiş və gələcək bütün sevdiklərimizin toplandığı, Allahın əmrlərinə uyğun gəlmiş olmanın mükafatının verildiyi aləmə keçmək üçün bir pillə halına gələcək. Ancaq bu yöndə ölüm, həyatımıza bir məna, hüzur və xoşbəxtlik qatacaq. Kimlər yox ki, orda?! Baba və nənələrimiz, könüldən sevdiyimiz ana, ata və qardaşlarımız... Nə qədər böyük insanlar, – Allah dostları, sıddıqlar, şəhidlər, salehlər, peyğəmbərlər və ən əhəmiyyətlisi, iki dünya günəşi Əfəndimiz (s.ə.s.), – hamı orada... Sevdiklərimizlə dolu olan aləmə keçmək üçün, bir başqa doğuş olan ölüm tək çarədir…

Hacı BƏKİROĞLU

## TDU-NUN "DÖVLƏT İDARƏSİ" MAGİSTR PROQRAMINA BEYNƏLXALQ AKREDİTASİYA VERİLDİ



TDU-nun "Dövlət idarəsi" magistr proqramına beynəlxalq akreditasiya verildi. Belnəlxalq akreditasiyanın verilməsi ilə bağlı təntənəli tədbir keçirilib.

Tədbirdə TDU-nun rektoru, akademik Vladimer Papava, Gürcüstan elm və təhsil naziri Tamar Sanikidze, Maliyyə naziri Nodar Xaduri, Tbilisi meri Davit Narmaniya, dövlət qurumlarının, beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri, universitetin nümayəndələri və tələbələr iştirak ediblər.

Universitetin yaydığı məlumata görə, 2013-cü ilin dekabrında İvane Cavaxişvili adına TDU-nun hüquq fakultəsi və Sbaier inzibati elmlər universitetinin əməkdaşlığı nəticəsində həyata keçirilən "Dövlət idarəsi" magistr proqramına beynəlxalq akreditasiya verilməsi üçün, beynəlxalq akreditasiya təşkilati FIBAA ilə müqavilə imzalanıb. FIBAA-nın akreditasiya komitəsinin 19 iyun 2015-ci il tarixli qərarı ilə, "Dövlət idarəsi" magistr proqramına heç bir tövsiyə və əlavə qeyd edilmədən 5 il müddətinə beynəlxalq akreditasiya verilib. Bu isə Gürcüstan universitetləri tarixində indiyə qədər görünməmiş hadisədir.

## ABİTURİYENTLƏRİN 13%-İ ÜMUMİ QABİLİYYƏT İMTAHANINDAN KEÇƏ BİLMƏYİB



Vahid milli imtahanlarda abituriyentlərin 13%-i ümumi qabiliyyət imtahanından keçə bilməyib.

Milli imtahan mərkəzinin direktoru Mayya Miminovşili ümumi qabiliyyət imtahanlarının nəticələrinin qənaətbəxş olduğunu bəyan edib.

Onun sözlərinə görə, testlərin dörd variantı da orta şəkildə çətin idi. Çətinliyinə görə bir-birindən çox da fərqlənmirdi. Lakin mərkəz onların müqayisəsini aparmış, statistik analiz əsasında müəyyən olunmuşdur ki, birinci və dördüncü variantlar müəyyən qədər çətindir. Bundan sonra müxtəlif ballar müəyyənləşdirilmişdir. Ikinci və üçüncü variantlar üçün keçid balı 24, birinci və dördüncü variantlar üçünsə 23 bal olmuşdur.

Mayya Miminoşvili qeyd etmişdir: "Müsabiqədə birinci və dördüncü variantları yerinə yetirmiş və 23 bal toplamış abituriyentlər də iştirak edəcək".

O, məlumat vermişdir ki, abituriyentlərdən biri 80 bal toplamışdır. Keçən il maksimum balı bir abituriyent də toplaya bilməmişdir.

Mayya Miminoşvilinin sözlərinə görə, 13% abituriyent keçid balı toplaya bilməyib. Buraya imtahana gəlməyən 3% də əlavə edilməlidir.

Digər fənlərin nəticələrini imtahan mərkəzi avqustun 5-dək açıqlayacaq.

## "CHARLİE HEBDO" PEYĞƏMBƏRİN KARİKATURALARINDAN İMTİNA EDİR




Fransız satirik həftəliyi "Charlie Hebdo"nun naşiri və baş redaktoru Loran Surisso bəyan edib ki, nəşr daha Məhəmməd peyğəmbərin karikaturalarını yayımlamayacaq.

Surisso bildirmişdir: "Biz peyğəmbərin karikaturasından özünüifadə azadlığı prinsiplərini müdafiə etmək üçün istifadə etmişdik". Riss təxəllüsü ilə tanınan rəssam qeyd etmişdir ki, dini mövzuda təsvirlər çəkməkdə məqsəd islamı tənqid etmək deyildi.

"Charlie Hebdo"nun əsas karikaturçusu olmuş, may ayında istefa vermiş Renal Luziye bildirmişdir ki, daha Məhəmməd peyğəmbərin karikaturası onu maraqlandırmır. O, demişdir: "Mən artıq Fransanın keçmiş prezidenti Sarkozini çəkməkdən bezdiyim kimi, bundan da yorulmuşam. Mən öz ömrümü onların karikaturalarına xərcləmək istəmirəm".

Bu ilin yanvarın 7-də Parisdə "Charlie Hebdo"nun redaksiyasına silahlı hücum olmuş, nəşrin 10 əməkdaşı da daxil olmaqla 12 nəfər həlak olmuşdur. Jurnalın üz qabığında Məhəmməd peyğəmbərin karikaturasının dərc edilməsi, onun redaksiyasına hücuma gətirib çıxarmışdır. Hücuma görə məsuliyyəti "əl-Qaida" öz üzərinə götürmüşdür.

# GÜRCÜSTANDA VAJA PŞAVELA ADINA ƏDƏBİ MÜKAFAT TƏSİS EDİLİB



Gürcüstanda Vaja Pşavela adına ədəbiyyat mükafatı təsis olunub. Bu barədə iyulun 25-də gürcü yazıçısı və şairi Vaja Pşavelanın şərəfinə keçirilən "Vajaoba" bayramında Gürcüstanın baş naziri İrakli Qaribaşvili məlumat verib.

Gürcü ədəbiyyatının klassiki Vaja Pşavelanın ölümnün 100 illiyi münasibətilə onun vətəni Çarqali kəndində ənənəvi bayram tədbirləri keçirilib.

Qaribaşvilinin sözlərinə görə, milli mükafata təqdim ediləcək namizədləri araşdıracaq və seçəcək xüsusi komissiya artıq yaradılıb.

10000 lari dəyərindəki ədəbi mükafat yaradıcılıq fəallığına, bədii ədəbiyyatın inkişafına və zənginləşdirilməsinə görə iki ildə bir dəfə veriləcək. Pul mükafatından əlavə qalib, həm də qızıl medal alacaq.

Baş nazir mərasimə toplaşan qonaqlar qarşısında söylədiyi nitqində bildirmişdir ki, gürcü ədəbiyyatının klassiki Vaja Pşavela həmişə ümumbəşəri dəyərləri vəsf etmişdir.

İ. Qaribaşvili demişdir: "Vaja Pşavelanın 100 ildən də çox bundan əvvəl vəsf etdiyi dəyərlərə bütün bəşəriyyət indi can atmaqdadır. İnanıram ki, vətəndaş şairi böyüdüb, tərbiyə etmiş xalq bütün çətinlikləri dəf edərək, qalib gələcək və ümumi məqsədə – ölkənin və millətin birliyinə nail olacaq".

Hökumət başçısı əlavə etmişdir ki, nüfuzlu ədəbi mükafatın yaradılması ideyası keçmiş baş nazir B. İvanişviliyə məxsusdur.

# ERKƏN EVLİLİYİ DOĞURAN SOSİAL SƏBƏBLƏRƏ BİR BAXIŞ

Son illərdə ən aktual, saf-çürük edilən mövzulardan biri də erkən evlilikdir.

Bu mövzu ilə bağlı biz gənclər də öz payımıza düşəni etdik. Bir neçə dəfə yığışıb öz aramızda bunun müzakirəsini apardıq. Muzakirə deyendə ki, günahkar axtardıq desək daha doğru olar.

Kimdir günahkar? Qızını erkən evləndirən valideyinlər, yoxs uşaq yaşında macəra arxasınca qaçan qızlar? Kimimiz valideyini günahlandırdıq, kimimiz sərgüzəşt axtaran qızı, kimimiz düşmən olaraq türk seriallarını gördük, kimimiz isə mobil telefonları.

Qızların oxumağa marağı yoxdur, bütün gün seriallara baxırlar və özlərini baş qəramanın yerinə qoyurlar. Elə bu yerdə mənim yadıma bir uşaqla olan dialoqum düşdü.

Beş yaşlı qız uşağından soruşuram ki, böyüyəndə kim olmaq istəyirsən (bu klassik bir sualdır böyüklərimiz də hər zaman bizdən soruşardılar, biz də ya həkim olurduq, ya müəllim). Cavab məni çox təəccübləndirdi. Uşaq qayıdıb mənə dedi ki, xidmətçi (qulluqçu) olmaq istəyirəm. Gözləmədiyim bir cavab idi. Bəs niyə dedim, uşaq bele cavab verdi:



Çünki televizodra həmişə qulluqcu qızlar gözəl və ağıllı olurlar, üstəlik ən yaraşıqlı oğlanlarla evlənirlər, mən də xidmətçi olacam. Qıza bir şey deyə bilmədim anasını qınadım. Nə isə...

Düşmənimiz artıq aydın idi, TELEVİZOR!

Bu fikir də çox xoşumuza gəlmədi, yenə araşdırdıq. Axır bir fikrin üstündə dayandıq: bəlkə elə günahkar biz özümüzük? Hmm..ola bilər. Qərar qəbul etdik. Biz artıq 18 yaşı tamam olmamış qızların toyuna getməyəciyik, budur bizim qarşıdurmamız. Əfsus ki, sözümüzü tuta bilmədik, aramızdan birinin yaxını kiçik yaşlı qızla evləndi. "Getməsə olmaz, məcbur getdi".

İndi neynəyək? Başladıq qadın haqları deyə bağırıb çığırmağa, hüquqlarımızı axtarmağa, guya biz hüquqlarımızı bilmirdik. Yığışdıq getdik kəndlərə. Müəllimlərlə ,şagirdlərlə, kənd ziyalilari ilə görüşdük, danışdıq. Cavablar bizim düşüncələri təkrarlayırdı.

Başqa bir şey olmalıdır günahkar. Axı kim? Nə?

Bu dəfə doğurdan tapdıq. Bu BORÇALIdır. Bəli, Borçalı olmasa biz Avropa birliyinə qatılardıq, Borçalı olmasa qızlarımız erkən evlənməzdi, Borçalı olmasa gənclərimiz savadsız qalmazdı, Borçalı olmasa o olmazdı, Borçalı olmasa bu olmazdı. Düşmən artıq bəllidir. Kimi dedi Borçalıda ziyali yoxdur, kimi dedi Borçalıda savadlı yoxdur, deməli, Borçalı hər pis işin başlanğıcı imiş. Ayağımıza daş dəyəndə Borçalıdan gördük.

Xəbər nəhayət ki, sosial şəbəkələrdə yayıldı. Borçalılar qızlarını tez evləndirirlər.

Əli mikrafon tutan hər kəs qaçdı kəndlərə "bəs deməzsiz filan kənddə filankəs 16 yaşında ana olub", "eşitdiz də filan kənddə filankəs 35 yaşında nənə olub". Başladılar yenə də Borçalını daş-qalaq eləməyə...

Bir neçə qeyri-hökümət təşkilatı yaranmışdı. Bu təşkilatlar yenə də fəaliyyətdədirlər. Onlar da öz növbələrində araşdırmalar apardılar, analizlər etdilər.

Onlar üçün günahkar bu dəfə Sovetlər Birliyindən sonra İslam dininin yayılması oldu. Mənim anlamadığım tək şey odur ki, İslamda harada yazılıb qızınızı zorla evləndirin və ya ailənizə qarşı gedib kiminləsə qaçın? Ümumi götürsək Sovetlər Birliyində vəziyyət daha gərgin idi. Yolla gedən qızı sorğusuz-sualsız, sözün əsl mənasında götürüb aparırdılar. Yazıq qız heç bilmirdi ki, onu kim qaçırır, kimə qaçırır. Bu sözüm sizi təəccübləndirməsin. Çünki çox zaman qızı qaçıran onunla evlənəcək oğlan yox, məhz onun atası, qardaşı, əmisi oğlu olurdu.

Bu o vaxtlar Qafqazın bir çox dövlətlərində adət halına gəlmişdi.

Statistik məlumatlara nəzər salsaq, görərik ki, azərbaycanlılar yaşayan kəndlərdə olduğu kimi, başqa millətlərin yaşadığı kəndlərdə də erkən evlilik davam etməkdədir. Zorla və ya xoşla.

Mən əminəm ki, bu gün hamımız bir ağızdan erkən evliliyə qarşıyıq və bunu aradan qaldırmaq üçün əlimizdən gələni sonuna qədər etməyə hazırıq. Çünki erkən evliliyin çox pis nəticələri göz qabağındadır. Mənim fikrimcə, günahkar nə Borçalıdır, nə də İslam. Günahkar kitabsızlıqdır, savadsızlıqdır. Hər şeyə səbəbkar da günahkar da kitabsızlıqdır. Ən pisi isə avamlıqdır. Gələcəyi düzgün analiz edə bilməməkdir.

Gürcüstanda da, Azərbaycanda da, Amerikada da bu problem mövcuddur, amma bu kəndlərdə daha geniş yayılıb, çünki kənddə elmə maraq yoxdur, kənddə elmlə bağlı heç bir şey yoxdur. İnsanlar nə olar, nə olmaz deyə böyük şəhərlərə uşaq göndərməyə qorxurlar.

Oturub səbəbkar axtarmaq yerinə hərəmiz bir kəndə gedib 10 valideyinlə söhbət etsək və bu söhbət nəticəsində hər kənddən hər il 3-5 qız ali məktəblərə getsə deyə bilərik ki, bizim bu prosesə kiçik də olsa əməyimiz keçdi. Amma əfsus ki, hələ o səviyyəyə gələ bilməmişik. Elə ona görə də bir-birimizi günahlandırırıq. Yenə də ümidvaram ki, bu insanlara lağ etmək yerinə onlara əməli yardım etməyə cəhd göstərəcəyik.

Nübar BAYRAM

# AZƏRBAYCAN MİLLİ MƏTBUATININ YARANMASININ 140 İLİ TAMAM OLDU



Həsən bəy Zərdabi 1837-ci il iyunun 28-də Göyçay qəzasının Zərdab kəndində anadan olmuşdur.İlk təhsilini mollaxanada almış, sonra Şamaxı şəhər məktəbində oxumuş, orta təhsilini isə Tiflisdə tamamlamışdır. 1861-ci ildə Moskva Universitetinə imtahansız daxil olmuş, dörd il sonra həmin universitetin təbiət-riyaziyyat fakültəsini bitirmişdir.

Elmi iş üçün universitetdə saxlanılsa da, Həsən bəy Zərdabi Azərbaycana qayıtmağa üstünlük vermişdir. Bir müddət Tiflisdə qulluq edəndən sonra Qubada məhkəmədə işləmiş, 1869-cu ildə Bakıya gələrək burada rusca orta məktəbdə təbiətdən dərs deməyə başlamışdır. Həsən bəy Zərdabi Azərbaycan peşəkar teatrının yaradıcılarındandır. Onun rəhbərliyi və dramatuqlardan Nəcəf bəy Vəzirov və Əsgər ağa Adıgözəlovun fəal iştirakı ilə 1873-cü ildə M. F. Axundovun "Hacı Qara" və "Lənkəran xanının vəziri" komediyaları tamaşaya qoyulmuşdur.

Ana dilində qəzetə böyük ehtiyac olduğunu dərk edən Həsən bəy Zərdabi qəzet çap etmək üçün hökumətə müraciət etmişdir. Bununla əlaqədar o İstanbuldan hürufat gətirtdirmiş və xeyli zəhmətdən sonra 1875-ci ilin 22 iyulunda Bakıda Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə müvəffəq olmuşdur. Bu qəzetlə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur.

1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr olunmuşdur. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür.

"Əkinçi" qəzetində Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin, Məmmədtağı Əlizadə Şirvaninin, Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundovun "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olunmuşdur.

Zərdabi və onunla birlikdə bu qəzetdə çalışan bir sıra maarifpərvər, demokratik naşirlər Şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın olmamasında görürdülər. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsi ilə xalqa çatdıra bilirdilər. O dövrdə xalqın başa düşəcəyi sadə dildə yazılan bu qəzetdə belə fikirlərin səslənməsi Azərbaycanı əsarət altında saxlayan imperiya məmurlarını ciddi narahat edirdi.

İlk mətbu orqan kimi "Əkinçi" öz əsas ideyasına uyğun olaraq incəsənət və ədəbiyyata aid yeni demokratik tələblər irəli sürürdü. Böyük dramaturq Nəcəf bəy Vəzirov köhnə şeirlərlə yanaşı, şairləri müasir həyatdan yazmağa, xalqı cəhalət və qəflət yuxusundan ayıltmağa, müasir ruhda tərbiyə etməyə çağırırdı. Bununla Zərdabinin səsinə Azərbaycanın bir çox görkəmli, maarifpərvər insanları səs verirdi. Təbii ki, bu cür demokratik məqalələrindən sonra çarizmin diqtəsi ilə özlərini "ziyalı" sayan bəzi üzdəniraq insanlar "Əkinçi"nin üzərinə hucuma keçdilər.

1877-ci il sentyabrın 29-da "Əkinçi" öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının ilki olan bu qəzet iki il ömür yaşasa da, xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynadı.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 iyul 2015-ci il
№004 (04)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | „გზა" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TBİLİSİDƏ 8-Cİ BEYNƏLXALQ SƏNƏT FESTİVALI KEÇİRİLİB




Yunus Əmrə Türk Kültür Məzkəzinin və İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin təşkilatçılığı və dəstəyi ilə keçirilən sənət festivalında Gürcüstan, Azərbaycan, Türkiyə, İraq, Rumuniya, Polşa, Yunanıstan, Misir, Tunis, Fransa, Almaniya, Yaponiya, Rusiya , Ukrayna, Qazaxıstan, Mərakeş və Makedoniyanı təmsil edən 55 sənətkar iştirak edib. Festival çəçivəsində iyulun 27-də türkiyəli karikatur rəssamı Harun Yavruoğlunun Tbilisi Dövlət Universitetində fərdi sərgisi təşkil edilib. Ayrı-ayrı günlərdə festivalda müxtəlif ölkələrdən olan rəssamların da sənət əsərləri Tbilisi sakinlərinin və paytaxtın qonaqlarının ixtiyarına verilib.

İyulun 22-dən 30-na qədər paytaxt Tbilisi 8-ci beynəlxalq sənət festivalına ev sahibliyi edib.

## “PAŞA BANK” BEYNƏLXALQ ŞAHMAT FESTİVALINA SPONSORLUQ EDİB

“Paşa bank”ın baş sponsorluğu ilə iyulun 12-21-də Poti şəhərində ikiqat dünya vitse-çempionu, 12 dəfə Ümumdünya şahmat olimpiadasının qalibi əfsanəvi usta Nana Aleksandriya adına 10-cu beynəlxalq şahmat festivalı keçirilib.

“Paşa bank” artıq ikinci dəfədir ki, 2006-cı ildən yerli idarəetmənin təşəbbüsü ilə Potidə keçirilən festivala sponsorluq edir.

Festival həm uşaqlar, həm də peşəkarlar arasında keçirilən müxtəlif kateqoriyalı 10 turniri əhatə edir.

Bu festival Beynəlxalq şahmat federasiyasının illik təqviminə daxil edilib. Festivalın gedişində oynanılan partiyalar onlayn rejimdə internetlə yayımlanır, bütün dünyada şahmat həvəskarlarının partiyaları izləmək imkanları olur.

“Paşa bank”ın baş direktoru Şahin Məmmədov bəyan etmişdir: “ “Paşa bank” 2013-cü ildən Gürcüstanda fəaliyyət göstərir, artıq ikinci ildir Nana Aleksandriya adına festivalın sponsorudur. Gürcü şahmat məktəbi həmişə fərqli olub, beynəlxalq səviyyəli bir çox şahmatçılar yetirib. Biz ümid edirik ki, bu ənənə davam edəcək, belə festivalların keçirilməsi gənclərə öz istedadlarını və bacarıqlarını inkişaf etdirməyə imkan verəcək”.



## HEPATİT HƏR İL 1.4 MİLYON İNSANIN ÖLÜMÜNƏ SƏBƏB OLUR

Bu barədə məlumat yayan Ümumdünya Səhiyyə Təşkilatı ölkələri hepatitlə mübarizəyə səsləyib.

Təşkilatın məlumatına görə, 5 növ hepatit xəstəliyi olsa da, B və C hepatiti qaraciyər xərçəngindən ölümlərin 80%-ni təşkil edir.

Narkotik istifadəçiləri arasında eyni iynənin təkrar istifadə edilməsinə görə, hər il 2 milyon insan hepatitə yoluxur. Qan və digər bədən suları ilə keçən hepatit B isə qaraciyərə təsir edir və xroniki xəstəliklərə səbəb olur.

Dünyada təxminən 240 milyon nəfər hepatit B virusunu daşıyır. Serroz və qaraciyər çatışmazlığına səbəb olan hepatit B-yə görə hər il 780 min nəfər ölür. Bunun qarşısını almaq üçün uşaqlar doğulandan 24 saat sonra onlara hepatitə qarşı peyvənd edilməlidir. Hepatit B ən çox Afrika və Şərqi Asiya ölkələrində geniş yayılıb.

ÜST-in məlumatına görə, dünyada 150 milyon insan hepatit C daşıyıcısıdır. Hər il 500 min insanın ölümünə səbəb olan Hepatit C-nin peyvəndi yoxdur. Bu xəstəlik də əsasən, təkrar istifadə olunan iynə və steril olmayan avadanlıqlardan istifadə etməklə yayılır.

Hepatit A və E isə əsasən, insan nəcisi ilə kirlənən su və qida qəbul etməklə bulaşır. Hepatit hər il 1.4 milyon insanın ölümünə səbəb olur.

## YAY İNGİLİS DİLİ MƏKTƏBİ PROQRAMI UĞURLA HƏYATA KEÇİRİLİR




Gürcüstan təhsil və elm nazirliyinin təşəbbüsü ilə yeddi ildir ki, “Yay ingilis dili məktəbi” proqramı həyata keçirilir.

Bu proqramın iştirakçıları milli təhsil olimpiadalarının üçüncü turunun nəticələri əsasında 9-cu, 10-cu, 11-ci siniflərin uğur qazanmış şagirdlərindən və nazirliyin təşkil etdiyi müxtəlif müsabiqələrin qaliblərindən seçilmişdir. Təhsil və elm nazirinin müavini Liya Qiqauri iyulun 28-də layihənin gedişi ilə tanış olmuşdur.

Layihə beynəlxalq Baksvud məktəbinin bazasında həyata keçirilir. Layihə özündə iki yarımproqramı birləşdirir: “Gürcüstanda yay ingilis dili məktəbi” və “Birləşmiş krallıqda yay ingilis dili məktəbi”. Proqramda 600 şagird iştirak edir ki, onlardan 36 ən yaxşısı nazirliyin hesabına Böyük Britaniyaya iki həftəlik yay ingilis dili məktəbinə yola düşəcək.

Məktəbdə fəallıq ingilislər tərəfindən işlənib və şagirdlərin intelektual, idman və yaradıcılıq imkanlarının inkişafına yönəldilib. Belə həvəsləndirmə forması uğur qazanan və fərqlənən şagirdlər üçün vacibdir. İldən ilə məktəb olimpiadalarının iştirakçılarının sayı artmaqdadır.

Yay məktəbi proqramı çərçivəsində bu il daha iki yay məktəbi də – “Gələcəyin liderlərinin yay məktəbi” və “Milli azlıqlar üçün multikultral yay məktəbi”, – fəaliyyət göstərir. Onların ikisi də iyul və avqust aylarında Bakurianidə təşkil olunacaq.

## GÜRCÜ KAZİNOSUNUN ƏSAS GƏLİR MƏNBƏYİ HARADANDIR?



Tbilisidə kazinoların əsas gəlir mənbəyi Azərbaycandan olan oyunçulardır. Bu barədə beynəlxalq Russian Gaming Week-2015 əyləncəli oyun sərgi forumunda Storm International şirkətinin ictimaiyyətlə əlaqələr üzrə direktoru Lavrenti Qubin məlumat verib.

Onun sözlərinə görə, Gürcüstan iqtisadiyyatı kazinolardan külli miqdarda gəlir götürür. Buna görə də, qanunda kazinolarla bağlı hansısa əsaslı dəyişiklik gözləməyə dəyməz.

“Gürcüstanda daxili oyun bazarı böyük olmadığından, biz bu səbəbdən də əsasən Azərbaycan, İran və Türkiyədən olan cankinqə işləyirik. Biz işimizi Rusiyadan gələnlər üzərində qurmamışıq.

Tbilisi və Batumidə oyunçu auditoriyası tamamilə fərqlidir. Tbilisiyə oyunçular daha çox İran, Azərbaycan, Tacikistan və Qazaxstandan, Batumiyə isə Türkiyədən gəlirlər. Lakin Batumidə VİP oyunçular azdır, onlar bir qayda olaraq Tbilisiyə gəlirlər”, – şirkətin direktoru demişdir.

“Adətən Gürcüstana gələnlərin 20%-i oyunlardan 80% gəlir əldə edir. Bu 20% isə əsasən Azərbaycan, İran və Tacikistandan olan oyunçulardır”, – Qubin fikrini tamamlamışdır.

Xatırladaq ki, bir çox ölkələrdə oyun biznesi qanunla qadağan edildiyindən həmin ölkələrin vətəndaşları kazinoların mövcud olduğu digər ölkələrə üz tuturlar.

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”*

*Redaktor:*
**Afiq Muxtaroğlu**
*Yayım Direktoru:*
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.